№ 191

# QƏRAR

Bakı şəhəri, 11 may 2016-cı il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli qərarı ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nda dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli178 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 9, maddə 869; 2007, N 1, maddə 45, N 3, maddə 312, N 10, maddə 1021; 2008, N 2, maddə 116; 2009, N 6, maddə 491, N 10, maddə 846, N 12, maddə 1061; 2010, N 3, maddə 264, N 4, maddə 359, N 7, maddə 702, N 12, maddə 1122; 2014, N 3, maddə 321, N 10, maddə 1322; 2015, N 4, maddə 474; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 yanvar tarixli 23 nömrəli və 25 fevral tarixli 89 nömrəli qərarları) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 12-ci hissəsindən "hərəkət və" sözləri çıxarılsın və həmin hissədə "yükaşırma və hərəkət təhlükəsizliyi" sözləri "və yükaşırma" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***